

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 82 (21.743)

2 may 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Bakının Səbail rayonunun Bibiheybət qəsəbəsində inşa olunmuş SOCAR-ın Bakı Ali Neft Məktəbinin yeni kampusunun açılışında iştirak edib.

Azərbaycan Prezidenti İlham Əliyev yeni kampusda görülən işləri əks etdirən stendlərlə tanış olub.

Bildirilib ki, 7 hektar ərazisi olan kampusun tikintisinə 2012-ci ildə başlanılıb və tədris üçün tam hazır vəziyyətə gətirilib. Təhsil kompleksi xüsusi dizaynla yüksək standartlar səviyyəsində, dünyanın tanınmış universitetlərinin təcrübəsinə əsaslanaraq ən son texnoloji nailiyyətlərlə inşa olunub. Bakı Ali Neft Məktəbinin kampusu əsas tədris korpusunu, kitabxana kompleksini, kütləvi tədbirlər üçün akt zalını, idarəetmə bölmələrinin yerləşdiyi binanı, yeməkxananı, uşaq bağçasını, ən müasir tələblərə cavab verən və qapalı idman zallarından, qapalı üzgüçülük hovuzundan, açıq tennis, voleybol, basketbol meydançalarından və stadiondan ibarət idman və 400 nəfərlik yataqxana kompleksini birləşdirir.

Prezident İlham Əliyev kampusun açılışını bildirən lenti kəsib.

Dövlətimizin başçısı əsas korpusda yaradılan şəraitlə tanış olub. Burada ümummilli lider Heydər Əliyevin büstü qoyulub, ulu öndərin və Prezident İlham Əliyevin təhsilə qayğısını əks etdirən fotoguşə yaradılıb. Kampusdakı 600 yerlik akt zalı kütləvi-mədəni tədbirlərin yüksək səviyyədə təşkili üçün modern tələblərə cavab verən infrastruktura malikdir.

Sonra dövlətimizin başçısına Bakı Ali Neft Məktəbinin tələbələri tərəfindən ixtira edilən avtomatik Günəş izləmə sistemi haqqında məlumat verilib. Bildirilib ki, bu sistem gün ərzində günəş şüalarını izləyir və panelləri Günəşə yönəlmiş vəziyyətdə saxlayır. Artıq məktəbin ərazisində bu sistemin istifadəsinə başlanılıb.

Azərbaycan Prezidenti İlham Əliyev Bakı Ali Neft Məktəbinin tələbə-müəllim heyəti ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Sonda xatirə şəkli çəkdirilib.

---

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 1 may tarixli sərəncamları ilə Azərbaycanda xalçaçılıq sənətinin inkişafında səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən xalçaçılar da vardır.

**Kəngərli Gülüsüm Həsən qızı**

"Əməkdar mədəniyyət işçisi" fəxri adı ilə,

**Əhmədova Bəsti Həsən qızı**
**Salmanova Güllər Əli qızı**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

---

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 1 may tarixli Sərəncamı ilə səhnə fəaliyyəti ilə bağlı bir qrup aparıcı incəsənət xadiminə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilmişdir. Mükafat alanlar arasında Naxçıvan Muxtar Respublikasının incəsənət xadimləri də vardır.

**Ağayev Ariz Tofiq oğlu**
**Axundov Əbülfəz Marlen oğlu**
**Bağırov Tural Vidadi oğlu**
**Cəfərli Azər Babalı oğlu**
**Əliyev Haxverdi Eldar oğlu**
**Əliyeva Fatma Həmid qızı**
**Seyidov İxtiyar Mircəfər oğlu**
**Seyidov Ricay Mirsəlim oğlu**
**Süleymanov Süleyman İman oğlu**
**Zeynalova Zülfiyyə Əsgər qızı**

## Muzey ziyarətləri davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə ələqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin olunmuşdur. Bu tədbirlərin həyata keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə və təbliğinə şərait yaradır.***



Aprelin 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Dövlət Bayrağı Muzeyində olmuşlar. Məlumat verilmişdir ki, Dövlət Bayrağı Meydanı və Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən yaradılmışdır. 2014-cü il noyabrın 17-dən fəaliyyətə başlayan muzeydə hazırda 160 eksponat nümayiş etdirilir ki, bu eksponatların böyük əksəriyyətini Naxçıvanda müxtəlif dövrlərdə qəbul edilmiş bayraqlar və dövlət atributları təşkil edir.

Qeyd olunmuşdur ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə təsis edilmiş üçrəngli bayrağımız ikinci dəfə ulu öndər Heydər Əliyev tərəfindən 1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırılmışdır. Muzeydə həmin illərdə qəbul olunmuş tarixi qərarlar, Azərbaycan Respublikasının Dövlət Bayrağı və digər dövlət atributları haqqında ətraflı məlumatlar yerləşdirilmişdir.

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 17 noyabr tarixli Sərəncamı ilə hər il noyabr ayının 17-si "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü" kimi qeyd edilir.

Ziyarətçilərə ekspozisiyadakı qədim dövlətlərin bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan zərbxanalarında kəsilmiş sikkələr, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş dövlət rəmzləri və konstitusiyaları haqqında ətraflı məlumat verilmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin kollektivi Heydər Əliyev Muzeyində, Ali Məhkəmənin əməkdaşları Bəhruz Kəngərli Muzeyində, Daxili İşlər Nazirliyinin kollektivi Nəbatat bağında, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi Cəlil Məmmədquluzadənin ev-muzeyində, Ədliyyə Nazirliyinin əməkdaşları Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksində, Fövqəladə Hallar Nazirliyinin kollektivi Xatirə Muzeyində olmuşlar. İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının kollektivi Cəmşid Naxçıvanskinin ev-muzeyini, Maliyyə Nazirliyinin əməkdaşları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini, Vergilər Nazirliyinin kollektivi Naxçıvan Dövlət Xalça Muzeyini, İqtisadiyyat Nazirliyinin əməkdaşları "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyini, Nəqliyyat Nazirliyinin kollektivi "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Ədəbiyyat Muzeyini, Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyini ziyarət etmişlər.

Şəhər və rayon icra hakimiyyətlərinin, eləcə də muxtar respublika mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da müvafiq olaraq rayon mərkəzlərində fəaliyyət göstərən Tarix-Diyarşünaslıq və digər muzeyləri ziyarət etmişlər.

✍ **Səbuhi HƏSƏNOV**

## Növbəti kənd təsərrüfatı məhsullarının satışı yarmarkası keçirilib

***Ötən şənbə günü Naxçıvan şəhərindəki Mərkəzi bazarda qələbəlik var idi. Burada təşkil olunmuş yarmarkaya gələnlərin ardı-arası kəsilmirdi. Hiss olunurdu ki, onlar neçə illərdir, mütəmadi olaraq keçirilən belə tədbirlərdən xeyli razıdırlar. Bunu yarmarkaya üz tutan insanların çöhrələrindən də duymaq çətin deyildi. Çünki keyfiyyəti ilə seçilən yerli məhsulları buradan ucuz qiymətə ala bilirlər. Budəfəki yarmarkada yerli tərəvəz məhsulları ilə yanaşı, qida kimi istifadə olunan yabanı bitkilər də çoxluq təşkil edirdi.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələr muxtar respublikamızda uğurla icra olunur. Bunun nəticələrini Mərkəzi bazarda keçirilən yarmarkada da görmək mümkün idi. Bazarda belə məhsulların bolluğu deməyə əsas verirdi ki, adıçəkilən proqram muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasına öz töhfələrini verir.

Yarmarkaya məhsul gətirən torpaq mülkiyyətçilərinə hərtərəfli şərait yaradılmışdı. Buradakı səliqə-sahman da ilk baxışdan diqqəti cəlb edirdi. Yarmarkada məhsullar bazar qiymətindən 15-20 faiz ucuz təklif olunurdu. Səhər saatlarından yarmarkada əhali sıxlığı yaranmış, saat 11[30]-da yarmarkaya daxil olan məhsulların 85 faizindən çoxu satılmışdı.

Süni qiymət artımının qarşısının alınması, alıcıların seçim imkanlarının artırılması məqsədilə bolluq yaradılmış, sahibkarlıq subyektləri tərəfindən 109 növdə, 192 çeşiddə məhsul yarmarkaya çıxarılmışdı.

Bu aylarda yarmarkada qida kimi istifadə olunan yabanı bitkilər də çoxluq təşkil edirdi. Alıcılar bu məhsullara da maraq göstərirdilər. Muxtar respublikanın dağ və dağətəyi ərazilərindən toplanmış cacıq, şomu, çiriş, qazayağı və başqa bitkilərin hər biri min dərdin dərmanıdır. Naxçıvan mətbəxində bu bitkilərdən geniş istifadə olunur.

Artıq əkin sahələrində digər məhsullar da yetişməkdədir. Önümüzdəki həftələrdə keçiriləcək kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında şəhər sakinlərinə həmin məhsullar da təqdim olunacaq. Belə tədbirlər bir neçə cəhətdən sərfəlidir. Təşkil olunan yarmarkalar torpaq mülkiyyətçilərinin min bir zəhmətlə yetişdirdikləri məhsulları rahatlıqla satmalarına və ailə büdcələrinin gəlirlərini artırmalarına şərait yaradır, daxili bazarı yerli məhsullarla təmin edir.

✍ **Muxtar MƏMMƏDOV**

***Babək rayonunun Payız kəndində kompleks quruculuq işləri görülür. Hazırda kənddə tam orta məktəbin binası əsaslı yenidən qurulur, kənd və xidmət mərkəzləri, su dəyirmanı tikilir, digər abadlıq işləri aparılır.***

## Payız kəndində kompleks quruculuq işləri görülür



Hazırda Payız kənd tam orta məktəbinin binası əsaslı şəkildə yenidən qurulur. Məktəbdə 117 şagird təhsil alır. Lakin kəndin gələcək inkişaf perspektivi nəzərə alınaraq məktəb 234 şagird yerlik tikilir. Burada 13 sinif otağı, müxtəlif laboratoriyalar, kompüter otağı, elektron lövhəli siniflər, şahmat sinfi, hərbi kabinə, kitabxana, idman zalı yaradılacaq.

Bu yaşayış məntəqəsində 2 mərtəbəli kənd mərkəzi də inşa olunur. Kəndi iki yerə ayıran Cəhriçayın üzərindəki körpü təmir olunur, çayın kənarlarında istinad divarları tikilir və sahilbərkitmə işləri aparılır. Kəndarası yol da əsaslı təmir edilir, yol kənarlarına suaxıdıcı kanallar çəkilir. Bununla yanaşı, dağlardan gələn sel sularının qarşısını almaq məqsədilə də kanallar tikilir.

Vaxtilə kənddə mövcud olmuş, sonralar isə sıradan çıxmış su dəyirmanının yerində yeni dəyirman tikilir.

**Xəbərlər şöbəsi**

***Kənd təsərrüfatı ərzaq təhlükəsizliyinin əsasını təşkil etdiyinə görə hər bir ölkə üçün iqtisadi, sosial əhəmiyyət kəsb edir və prioritet sahə hesab olunur. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi aqrar siyasətin bu gün uğurla davam etdirilməsi nəticəsində kənd təsərrüfatının ölkə iqtisadiyyatındakı rolu daha da artıb. Qəbul edilən dövlət proqramlarının icrası istiqamətində həyata keçirilən tədbirlər, nəticə etibarilə, məhsul bolluğuna zəmin yaradıb, təsərrüfatın müxtəlif sahələr üzrə fəaliyyətini şaxələndirib. Yeni emal müəssisələrinin yaradılması fermerləri təsərrüfat sahələrini genişləndirməyə sövq etməklə yanaşı, yerlərdə əhalinin məşğulluq probleminin həllinə də müsbət təsir göstərib. Əhalinin 70 faizinin kənd yerlərində yaşaması da bu sahənin muxtar respublika iqtisadiyyatı üçün necə böyük önəm daşıdığını aydın göstərir.***

# Məhsuldarlığın yüksəldilməsi kənd təsərrüfatının əsas hədəfidir

## *Toxumçuluq təsərrüfatında yeni innovasiyaların tətbiqi bu hədəflərə çatmağa imkan verir*

Muxtar respublikada aqrar sahənin inkişafı istiqamətində aparılan islahatlar kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafına səbəb olub. Fermerlərə yanacağa, motor yağına, gübrəyə çəkilən xərclərin 50 faizinin dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi əkinçiliyin inkişafında yeni istiqamətlər açıb, əkin sahələri və məhsuldarlıq ilbəil artıb. Meliorasiya-irriqasiya sistemlərinin yeniləşdirilməsi torpaq sahələrində su təminatının yaxşılaşdırılmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verib.

Kənd təsərrüfatında yeni innovasiyaların tətbiqi bu gün böyük əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikasına tələbata uyğun yeni kənd təsərrüfatı texnikalarının alınıb gətirilməsi də məhz bu amala xidmət edir. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən bu günə qədər muxtar respublikaya 1925 texnika və texnoloji avadanlıq alınıb gətirilib. 2017-ci ilin ötən dövründə isə 41 texnika və yeni suvarma sistemləri üçün avadanlıqlar alınıb.

Müasir dünya təcrübəsi göstərir ki, taxıl bitkilərinin yetişdirilməsində məhsuldarlığa təsir edən əsas amillərdən biri də keyfiyyətli toxum növlərindən istifadədir. Ona görə





də bütün dünyada toxumların genofonduna, seleksiyasına xüsusi əhəmiyyət verilir, ciddi tədqiqatlar aparılır, genetik xəstəliklərə, ziyanvericilərə qarşı daha dözümlü növlər yetişdirilir. Bu səbəbdən məhsuldarlığın artırılması və ərzaq təhlükəsizliyinin etibarlı təminatı üçün toxumçuluq təsərrüfatlarının inkişafı diqqətdə saxlanır.

Ötən ay Çin Xalq Respublikasından gətirilən 33 adda 80 kənd təsərrüfatı texnikası, eləcə də toxum laboratoriyası yeni metodlarla əkin və becərmə işlərinin aparılmasına öz töhfəsini verəcəkdir. Çin istehsalı olan 5 kombayn, 5 traktor, hər birinin tutumu 10 ton olan 4 yük maşını, 5 toxumsəpən, 5 filtrtəmizləyici, avtobus, hidravlik ekskavator, yanacaq tankeri, toxumörtən, diskli kotan və dırmıqlar, 5 gübrəsəpən, 5 toxumtəmizləyən, 2 elevator, 80 tonluq elektron tərəzi, eləcə də digər maşın və avadanlıqlar yüksək iş imkanlarına malikdir. Hazırda toxumçuluq təsərrüfatının istifadəsində 2000 hektar əkinəyararlı torpaq sahəsi var. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Ədalət Hüseynovun sözlərinə görə, bu texnikalar təsərrüfatın bundan sonrakı dönəmində daha da səmərəli fəaliyyətinə, taxıl toxumu, o cümlədən də digər kənd təsərrüfatı bitkilərinin toxumlarının istehsalını təşkil etməyə imkan verəcəkdir: “Belə texnikalar münbitliyi az olan torpaqlarda daha effektiv nəticə verir. Digər aqrotexniki tədbirlər – gübrə səpinindən tutmuş şumun qaldırılması, bu proseslərin ardıcıllıqla keyfiyyətli təşkili müasir texnika ilə mümkündür. Bu texniki təminat muxtar respublikada bir ilkdir və digər təsərrüfatlar üçün nümunədir. Təsərrüfatın əsas fəaliyyət istiqaməti taxıl toxumçuluğu sahəsindədir. Gələcəkdə yem bitkiləri və digər tərəvəz toxumlarının yetişdirilməsi imkanları da var. Burada taxıl sortlarının çoxaldılıb yetişdirilməsi həyata keçiriləcək. Sahibkarlar da maraqlı olacaq ki, bu keyfiyyətli toxumdan əkib məhsul götürsünlər. Bu, eyni zamanda torpaqdan istifadənin səmərəliliyini artıracaq, həm də iqtisadi cəhətdən gəlir gətirəcək”.

Keyfiyyətli toxum dedikdə, toxumun təmizliyi, saflığı, bərabərliyi, yəni eyni ölçüdə olması, xəstəlik və zərərvericilərə qarşı davamlılığı başa düşülür. Bu tələblərə cavab verən toxumlar standart toxumlar sayılır. Toxumtəmizləyən aqreqatlar imkan verəcək ki, toxumları daha yaxşı çeşidləmək mümkün olsun. Toxum təmizləndikdən və qurudulduqdan sonra sortlaşdırılır. Burada əsas məqsəd səpində yalnız keyfiyyətli toxumlardan istifadə etməkdir.

Yeni alınan elektro-termostatik inkubator, isitmə və qurutma sobası, mikroskop və digər avadanlıqlar hesabına toxumçuluq laboratoriyasında yüksək məhsuldarlığa malik, xəstəliyə, ziyanvericilərə və yerli iqlim şəraitinə dözümlü toxum sortları yetişdiriləcək, toxumların genofonduna və seleksiyasına nəzarət olunacaqdır.

Toxumçuluq təsərrüfatına gətirilən digər texnikalar da yüksək iş göstəricilərinə malikdir. Bu texnikalar vaxtdan səmərəli istifadəyə və yüksək məhsuldarlığa nail olmağa yönəlib. Kombaynlar, traktorlar iş zamanı kənardan yanacaq götürməsin deyə yanacaq tankerindən istifadə olunacaq ki, bu da texnikaları vaxtında yanacaqla təmin edəcək. İş prosesində hər hansı bir nasazlıq ortaya çıxarsa, texniki xidmət maşını nasazlığın zəmidəcə təmir olunmasına imkan verəcək. Muxtar respublikanın əkinəyararlı torpaq sahəsi az olduğu üçün innovativ üsulların tətbiqi məhsuldarlığa yol açacaq.

Toxumçuluq təsərrüfatının 400 hektar əkin sahəsində qurulacaq yeni qapalı suvarma şəbəkəsi də bu baxımdan faydalı olacaq. Qapalı suvarma şəbəkəsi şoranlaşmaya və su itkisinə yol vermədən əkin sahələrinin tələb olunan miqdarda suvarma suyu ilə təminatına imkan verəcək. Növbəti illərdə digər sahələrdə də qapalı suvarma şəbəkəsi qurulacaq ki, bu da təsərrüfatın fəaliyyətinin səmərəliliyinə zəmin yaradacaq.

Muxtar respublikanın iqlim şəraitinə uyğun toxum sortlarının yetişdirilməsi və paylanması toxumçuluq təsərrüfatının qarşısında duran əsas vəzifədir. Bu ilin məhsulu üçün 800 hektarda iqlim şəraitinə uyğun məhsuldar taxıl sortları əkilib.

*Kənd təsərrüfatında əsas hədəf məhsuldarlığın yüksəldilməsidir. Həyata keçirilən tədbirlər bir daha belə deməyə əsas verir ki, muxtar respublikada müasir kənd təsərrüfatı texnikaları ilə təchizat və əkin sahələrində müasir suvarma sistemindən istifadə hesabına keyfiyyətli və bol məhsul əldə olunacaq, daxili bazarda belə məhsulların xüsusi çəkisi artacaqdır.*

**Ruhiyyə RƏSULOVA**
***Naxçıvan Dövlət Televiziyasının baş redaktoru***

***Ekoloji problemlər müxtəlif ekoloji amillərin təsiri ilə təbiətin strukturunun və funksiyasının dəyişməsi nəticəsində yaranan problemlərdir. Məlumdur ki, texnologiya inkişaf etdikcə, təbiətdə ekoloji tarazlıq pozulmağa doğru gedir. Elmi-texniki inqilab əsri hesab edilən XX əsrdən başlayaraq qazanxana və sənaye müəssisələrindən, hərəkət zamanı milyonlarla avtomobillərdən xaric olunan zəhərli qazlar, müxtəlif layihələr üçün yaşıl bitki örtüyü sahələrinin məhv edilməsi və digər amillər təbiətin tarazlığını pozaraq anormal hava şəraitinin yaranmasına səbəb olub və bu proses indi də davam edir.***

# Ekoloji təfəkkürün formalaşdırılması muxtar respublikada həyata keçirilən ekosiyasətin əsas mahiyyətini təşkil edir

Okeanlarda və müxtəlif su mənbələrində buxarlanan su, ildən-ilə həcmi kiçilən yaşıllıqlarda fotosintez prosesi oksigen ehtiyatını müəyyən qədər tənzimləsə də, bu, yetərli deyil. İki yüz il bundan əvvəl insanlar məişət tullantılarının nə olduğunu bilmirdilər, indi isə bu cür tullantılar ekoloji problemlərin sıralamasında ilk yerlərdən birini tutur. Başqa bir misal. Orta əsrlərdə dünyada baş verən müharibə və toqquşmalar say baxımından indikindən dəfələrlə çox idi, lakin indiki müharibələrlə müqayisədə ekologiyaya təsiri, demək olar ki, yox dərəcəsində idi. Belə misalların sayını dəfələrlə artırmaq olar. Söhbət ondan gedir ki, hər ötən il bəşəriyyət ekoloji problemlərlə daha çox qarşılaşır. Bu problemlərin həlli yollarından çox danışılsa da, əməli iş görənlərin sayı bundan qat-qat azdır. Ekoloq alimlərin bildirdiyinə görə, hər ölkə özünün ekoloji təhlükəsizliyini özü təmin edərsə, o zaman mövcud problemlərdən də müəyyən qədər xilas olmaq mümkündür.

Unutmaq olmaz ki, ekologiya məsələləri bəşəri xarakter daşıyır. Yalnız dünyanın ağıllı xalqları bu problemlərin həllinə müəyyən qədər töhfə verə bilirlər. Təbiətə belə töhfənin verilməsində ekologiya amilinə yanaşmanın böyük təsiri var. Çünki ekologiya dedikdə, sadəcə, ağaclar, meşələr, yaşıllıqlar başa düşülmür. Ümumilikdə, torpaq, su, Günəş, yaşıllıqlar, canlılar və sairin vəhdəti nəzərdə tutulur. Buna görə də ətraf mühitin qorunmasında in-



sanlarda ekoloji təfəkkürün düzgün formalaşdırılması mühüm şərtdir. Elmi ədəbiyyatda daha çox “ekoloji şüur” kimi istifadə olunan bu termin ictimai və fərdi şüurun təbiətə münasibətdə etik davranış xüsusiyyətlərini özündə əks etdirir. İndi isə bu təfəkkürdən yola çıxaraq muxtar respublikada həyata keçirilən ekoloji siyasətin mahiyyətinə varmağa çalışaq.

Qeyd edək ki, kəskin kontinental iqlimi ilə seçilən muxtar respublikanın təbii olaraq az örtüyə malik yaşıllıq sahələri ötən əsrin sonlarında məlum səbəblərə görə daha da azalmış, muxtar respublika ərazisinin 0,6 faizinə bərabər olmuşdu. Ötən dövr ərzində bu sahədə həyata keçirilən tədbirlər yaşıllıqların 12 faizədək artırılmasına gətirib çıxarıb. Nəzərə alaq ki, yaşıllıq sahələrinin həcminin artırılması indeksinə görə belə nəticənin əldə olunması beynəlxalq aləmdə nadir hallardan sayılır. Eyni zamanda bunu da nəzərdən qaçırmayaq ki, yeni yaşıllıqların, meşə massivlərinin salınması praktik baxımdan ən böyük texniki layihələrin həyata keçirilməsindən daha çətindir. Çünki istənilən layihəni yerinə yetirmək üçün əgər maliyyə imkanları varsa, onları müəyyən müddətdə başa çatdırmaq mümkündür. Yaşıllıq sahələrinin yaradılmasında isə təkcə maliyyə kifayət etmir, zəhmətkeşlik, qayğı, səbir, təbii təsirlərdən qorunmaq kimi vasitələr önə keçir. Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, ötən dövrdə bu tədbirlərin həyata keçirilməsində muxtar respublika rəhbərinin şəxsi nümunə göstərməsi, görülən işlərin kampaniya xarakterli deyil, ümumi fəaliyyətin tərkib hissəsinə çevrilməsi regionda ekoloji mədəniyyətin formalaşmasına böyük təsir göstərib. Bu ekoloji mədəniyyət insanların düşüncəsində təkcə ağac əkmək, onlara qulluq etməklə məhdudlaşmır. Paytaxt Naxçıvan şəhəri də daxil olmaqla muxtar respublikanın bütün yaşayış və qeyri-yaşayış məntəqələrinin təmiz saxlanılmasını indi bura yolu düşən əcnəbi qonaqlar da tez-tez dilə gətirirlər. Bu təmizliyi qorumaq, yaşıllıqları mühafizə etmək artıq hər bir naxçıvanlının şüuraltında, sözün müsbət mənasında, mühafizəkar bir düşüncə formalaşdırıb. Məhz bu düşüncəni Naxçıvan cəmiyyətində ekoetikanın təzahürü hesab etmək olar.

Muxtar respublikada əlverişli ekoloji mühitin yaradılması istiqamətində görülən işləri bir yazıda sadalamaq qeyri-mümkündür. Təkcə onu xatırladaq ki, 2016-cı ildə həyata keçirilən ekoloji tədbirlər nəticəsində muxtar respublikada 546 hektar sahədə meşəsalma və meşəbərpa işləri görülüb, yaşıllaşdırma tədbirlərində 213 min 500 ədəd meyvə, 238 min 500 ədəd meşə, həmişəyaşıl və bəzək kolları olmaqla, cəmi 452 min ədəd ting əkilib. 50 hektarı püstə bağı olmaqla, 200 hektar sahədə meyvə bağları salınıb. Bu tədbirlər əvvəlki illərdə olduğu kimi, cari ildə də davam etdirilir. Belə ki, cari ilin aprel ayının ilk həftəsində muxtar respublikada keçirilən iməciliklərdə 30 hektarda 17 min 620 ədəd meyvə və meşə, 95 min ədəd üzüm tingi əkilib. Həmin ayın ikinci həftəsində isə 23 min 400-dən çox sakinin iştirak etdiyi növbəti iməcilikdə 61 min 961 ədəd ağac və bəzək kolları, 2100 ədəd meşə ağacı, 11 min 260 ədəd meyvə ağacı, 601 ədəd həmişəyaşıl ağac, 1500 ədəd gül və bəzək kolları, 46 min 500 ədəd üzüm tingi əkilib.

Bu il muxtar respublikada mühüm əhəmiyyəti ilə seçilən və həyata keçirilən tədbirlərdən biri də qəbiristanlıqların səliqə-sahmana salınması olub. Qəbiristanlıqlardakı dəmir çəpərlərin sökülməsi, məzarların ətrafında təmizlik və abadlıq işlərinin aparılması təkcə muxtar respublika əhalisi tərəfindən deyil, ölkə sakinləri tərəfindən də rəğbətlə qarşılandı. Bu tədbirlər nəticəsində tonlarla dəmir yığını qəbiristanlıqlardan çıxarıldı. Əvəzində qəbiristanlıqlarda həmişəyaşıl ağacların əkilməsi ənənəsinin əsası qoyuldu. Belə yaşıllıqlar isə ekoloji faydası ilə yanaşı, həm də mənəvi baxımdan əhəmiyyətli hesab olunur.

Naxçıvan Muxtar Respublikasında son illərdə kəhrizlər təmir edilir, yeni su ehtiyatları yaradılır, içməli su və kanalizasiya xətləri yenilənir. Bununla yanaşı, fauna və flora növlərinin qorunması, tikilən və ya yenidən qurulan hər bir obyektin ətrafında yaşıllıq və ya gülkarlıq sahələrinin yaradılması, əkin sahələrinin dövriyyəsinin artırılması, yeni suvarma xətlərinin çəkilməsi ilk baxışda sosial-iqtisadi tədbirlər kimi görünsə də, onların əsl mahiyyətində ətraf mühitin qorunması, insanların rahat yaşaması üçün sağlam şəraitin yaradılması durur. Bu mənada, Naxçıvan həm də özünün ekologiya tarixini yazır. Gələcək nəsillər bu tarixi təkcə kitablardan, mətbuatdan deyil, Naxçıvanın sağlam və gözəl mənzərəsindən də oxuya biləcəklər. Oxuyacaqlar ki, onlara əmanət edilən Ana Təbiətin əbədi olaraq bir hissəsi olduqlarını dərk etsinlər.

**Səbuhi HƏSƏNOV**

# Ora “Şərqin gözəli”dir

## Bu yerlərdə hər qayaya, daşa salavat çevirməsəm, ürəyim rahatlıq tapmaz

Yurdumuzun hər qarışı mənə doğma və əzizdir. Azərbaycan, sözün əsl mənasında, gözəlliklər və özəlliklər məskənidir. Onun vəsfi və əsrarəngiz hüsnü ilə bağlı unudulmaz söz ustadlarımız bir-birindən dəyərli poetik nümunələr yaradıblar. Təbii ki, bu şeirlərin ovqatında tərənnüm də var, təsvir də, həsrət də, sadəcə, təqdim də, hətta mübarizlik də, döyüş ruhu da…Hər bir şeir öz müəllifinin daxili dünyasının əks-sədasıdır. Elə misralar da yaradılıb ki, sanki Vətənimizin şəklidir:

*Azərbaycan şahindir,*
*Dimdiyi göy sularda,*
*Qanadları göylərdə…*

Xəritəyə nəzər salsaq, Xalq şairi Rəsul Rzanın nə qədər haqlı olduğu dərhal bilinər.

### *Tanınmadığın bir qapını döysən, yaşlısı sənə “balam”, çocuğu isə “nənəm” deyəcək*

Nə isə… Mətləbdən uzaq düşdüm. Hərdən özüm də duyğularımı sözün rənginə bələməklə hisslərimi Vətənimin çalarlarına yönəldirəm: Zəngəzurum – dərdli qəlbim, Qarabağım – şah damarım, dağlar gözəli Şuşa ruhumun ünvanı, Mil-Muğanım geniş ürəyim, Cənubum – Lənkəranım göz nurum, Şimalım – əhli dostlarım, Şirvanım – şir biləklim, Bakım – taleyim, səadətim, sevincim, əbədi ünvanım… Və nəhayət, Naxçıvanım – Ana yurdun havasını ala bildiyim cənnətməkan! Müqəddəs və doğma diyar! Bu yerlərdə təkcə dağlara, pirlərə, müqəddəs ünvanlara deyil, hər qayaya, daşa salavat çevirməsəm, ürəyim rahatlıq tapmaz. Üç tərəfdən düşmənlə üz-üzə dayanmasına baxmayaraq, bu diyar qurub-yaradan insanların ilhamlı əməyi nəticəsində gündən-günə gözəlləşir. Şair Əliyar Yusiflinin misraları ilə bu qədim yurdun xəritəsi çox poetik naxışlanıb:

***Baxın, xəritədə bu qədim diyar,***
***Kiçik bir nöqtəylə qeyd edilibdi.***
***Bu yerin qolunda aslan gücü var,***
***Burdan cahangirlər peşman gedibdi.***

Naxçıvanda tanınmadığın bir qapını döysən, yaşlısı sənə “balam”, çocuğu isə “nənəm” deyərək elə qarşılayacaq ki, elə bil yüz illərdir, sən bu ailənin içindəsən. Sənə elə qonaqpərvərlik göstərib, əzizləyəcəklər ki… Bu sözləri elə-belə demədim, başıma gələnlərin diktəsidir. Hər dəfə Naxçıvana yolum düşəndə mütləq ziyarət edəcəyim məkanlar var. Bax həmin vaxtlarda bir qapını səhv döymüşdüm. Amma elə məhəbbət və ülfət gördüm ki, hələ də unuda bilmirəm. Hüseyn Cavidin ev-muzeyi ilə qonşu olan Zeynəb ananın təsadüfi qonağı oldum. Onun mehri məni elə kövrəltdi ki, sanki uzun həsrətdən sonra anamla görüşmüşdüm. Bizdə – Bakıda qapını yanlış döyən olsa, yəqin ki, “səhv gəlibsiniz” deyərək qapını örtərik. Naxçıvanda isə, əksinə, bizi elə məhəbbətlə qarşıladılar ki, handanhana anladıq ünvanı dəyişik saldığımızı. Bu qəfil qonaqlığı və xoş münasibəti orada kimə söylədiksə “başqa cür necə olmalıdır ki, bura Naxçıvandır...” dedilər. Xalq şairi Süleyman Rüstəmin məşhur bir şeirinin misralarını xatırladım: “Bizdən inciməmiş bir əziz qonaq...”



### *“Şərqin gözəli”*

Əbəs yerə yurdumuzun qədim və ulu diyarı Naxçıvanı “Şərqin gözəli” adlandırmırlar. Müğənnilər də böyük həvəslə, şövqlə oxuyurlar: “O, Naxçıvandır, Nəqşi-cahandır”. Qeyri-adi gözəlliyə, təbiətə, zəngin tarixə, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan Muxtar Respublikası Türkiyə ilə 11 kilometr məsafə istisna olmaqla, şimal və şərqdən indiki Ermənistan (sərhəd xəttinin uzunluğu 246 kilometr), qərb və cənubdan İran İslam Respublikası (204 kilometr) ilə həmsərhəddir. Türkiyə və İranla sərhədi Araz çayı, Ermənistanla isə, əsasən, Zəngəzur və Dərələyəz silsilələri təşkil edir. Qədim memarlıq abidələri ilə dünyada məşhur olan Naxçıvan yeganə məkandır ki, XII əsrdə analığın, qadınlığın şərəfinə abidə ucaldılıb. Möminə xatın türbəsi adlanan bu məşhur məqbərə, bir növ, Naxçıvanın rəmzi sayılır. Qarabağlar Türbə Kompleksi, Naxçıvan şəhərindəki Buzxana (XIV əsr), Xanəgah Abidə Kompleksi, imamzadələr, Gilan türbəsi, Şərq hamamı (XVIII əsr), Qazançı körpüsü, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyi, Yusif Küseyir oğlu türbəsi, müxtəlif məscidlər milli memarlıq abidələri kimi qorunmaqdadır. Nuhun türbəsi isə bu yerlərin ulu tarixindən bir əks-sədadır. Bəşəriyyətin qədim yaşayış məskənlərindən sayılan Naxçıvanı Nuh Peyğəmbərin gəmisinin endiyi yer kimi səciyyələndirirlər. Bu, tarixdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Hüseyn Cavid məqbərəsi qədim ənənənin ən gözəl davamı kimi dəyərləndirilir. Muxtar respublikanın hər bir rayonunda muzey var. Naxçıvanda isə bunların sayı daha çoxdur. Şəhərdəki Mirzə Cəlilin, Bəhruz Kəngərlinin, Hüseyn Cavidin, Cəmşid Naxçıvanskinin, Ordubadda Məmməd Səid Ordubadinin, Yusif Məmmədəliyevin, Kəngərlidə Şahtaxtinskilər Muzeyi, Şahbuzun Nursu kəndində Məmməd Arazın ev-muzeyləri daim qonaq-qaralıdır. Naxçıvanda Xan evinin yaxınlığındakı Açıq Səma Altında Muzeyin isə analoqu yoxdur. Daş dövrünün bütün məişət avadanlıqları, heykəl və heyvan fiqurları burada toplanıb. Hər bir eksponatın 1000-1500, bəzilərinin də 2000 yaşı var. Əslində, blokada şəraitində yaşayan, böyük Azərbaycanla ancaq hava vasitəsilə (son illər İran ərazisindən keçməklə də – F.X.) əlaqə yaradan Naxçıvanın gecələri işıqlı, gündüzləri fərəhgətiricidir. Naxçıvanlılar, sözün əsl mənasında, fədakar və qürurludurlar. Bax bu səbəbdən də doğma diyarı nəinki qoruyub saxlaya biliblər, həm də onun gündən-günə daha da tərəqqi etməsinə nail olublar.

### *Naxçıvanda qərib ağac yoxdur*

Bu gün Naxçıvan istənilən Avropa şəhərinə meydan oxumaq qüdrətinə malikdir. Son 20 ildə bu qədim diyar elə gözəlləşib ki... Hər dəfə Naxçıvandan heyrət və sevinc hissləri ilə qayıdıram. Şəhərdə çoxlu yeni binalar tikilib. Maraqlı və diqqətçəkən cəhət budur ki, qədimliklə müasirlik məharətlə qovuşub. Əgər bir tərəfdə qədim tikililər, abidələr şəhəri gözəlləşdirirsə, lap yaxınlıqdakı diaqnostika, ticarət, üzgüçülük, şahmat mərkəzləri də füsunkarlığı birə-beş artırır. Naxçıvan yaşıllıqlar, parklar, bağlar, seyrəngahlar, şəlalələr ünvanına çevrilib. Qədim Naxçıvanla müasir Naxçıvan ata-bala kimi bir-birinin əlindən mehribancasına tutaraq, daha da işıqlı gələcəyə doğru inamla addımlayır. Naxçıvan memarları çalışırlar ki, yaradılan hər bir abidə, tikilən hər bir bina köhnə gözəlliyi tamamlasın, şəhərə yeni rövnəq və cazibə gətirsin. Naxçıvanda əkilən ağacların, gül-çiçək kollarının sayı bilinmir. Yaxşı cəhət də budur ki, Naxçıvanda qərib ağac yoxdur. Yerli təbiətə və torpağa uyğun ağaclar əkilib-becərilir. Ona görə də Naxçıvan bağbanının əməyi hədər getmir. Hər tərəfdə səliqə-sahman, təmizlik hökm sürür. Şəhəri başdan-ayağa gəzdik. Sözün əsl mənasında, möhtəşəm təmizlik! Həqiqətən də, gözəlliyin ilkin şərti təmizliklə bağlıdır. Bütün mənalarda belədir. Naxçıvan bu gün müqəddəs bir Şərq şəhəridir! Naxçıvan bu gün müasir Avropa şəhəridir!

### *Əshabi-Kəhf – Məkkəm, Mədinəm mənim*

Ağlım kəsəndən həmişə anamın dilindən bu sözləri eşidərdim: “Ya Həzrət Abbas, ya Əshabi-Kəhf...” Bu çağırışın-andın ahəngindəki dualar illərdir, mənimlə yol gəlir. Heç unuda bilmirəm, son nəfəsində də mənə tapşırdı ki, Əshabi-Kəhfi mütləq ziyarət edim. Hətta yastığının altındakı pula da işarə etdi ki, qurban demişdim, mənim adımdan alıb kəsdirərsən. Nəziri böyük oğlum Elnurla bağlı idi. Anamın vəsiyyətinə əməl etsəm də, hər dəfə Naxçıvana gedəndə mütləq bu müqəddəs məkanın ziyarətçisi oluram. Mənə elə gəlir ki, anamın ruhu da ordadır... Özümü elə çarəsiz hiss edirəm ki... Bu yerlər Allahın varlığını, hökmünü, qüdrətini, böyüklüyünü, ucalığını təsdiq edən dağ möhürüdür. Bu ziyarətgah Qurani-Şərifə düşmüş adının paklığını, müqəddəsliyini hifz etmək görünüşündədir. Müasirtipli kölgəliklər yaradılmış, ziyarətçilərin rahatlığını təmin etmək üçün masa və oturacaqlar qoyulmuş, su çəkilmişdir. Maşınların ayrıca dayanacağı, qurban kəsmək üçün xüsusi yer, namaz qılmaq üçün tikilmiş məscidlər buraya gələnləri valeh edir. Ən başlıcası odur ki, bu ziyarətgahda dilənçiyə, nəzir-niyaz yığana rast gəlmirsən. Tarixən Naxçıvanda, elə Əshabi-Kəhfdə də dilənçi olmayıb. Ötən illərdə el arasında Beşbarmaq adlanan, əslində isə Xızır-zində baba ziyarətgahında olmuşduq. Gördüklərimiz, müşahidələrimiz bizi dəhşətə gətirmişdi. Antisanitariyanın baş alıb getdiyi, zibilliklərin tüğyan etdiyi bu məkanda fürsəti fövtə verməyənlərin soyğunçuluq əməlləri, hər daşın kölgəsində, bütün ziyarətgah boyu pilləkənin əvvəlindən dağın zirvəsinə qədər “nəzir yığanların” düzülməsi bizi narahat etmişdi. Hər dəfə Əshabi-Kəhfi ziyarətdən sonra bu qənaətə gəlirəm ki, hər bir məkan onun rəhbərinin necəliyi və adı ilə bağlıdır. Əgər bu dağlar qoynunda, Əshabi-Kəhfdə bu şərait yaradıla bilirsə, Bakı-Siyəzən yolunun üstündə yerləşən Beşbarmaq dağının ətrafında abadlıq aparmaq olmazmı? Bizə elə gəlir ki, Siyəzən rayon rəhbərliyi öyrənmək və nümunə götürmək üçün bir dəfə yolunu Əshabi-Kəhfə salsa, dediklərimizi anlayar. On il öncə də belə bir iradla mətbuatda çıxış etmişdim ki, bəzi ziyarətgahların ətrafındakı xoşagəlməz halların qarşısı alınmalıdır. Hələ də nöqsanlar davam edir. Ziyarətgahlarda xarici ölkələrdən gəlmiş insanlar da olur.

### *İşıqları gur, ocaqları alovlu*

Ötən əsrin sonlarında yurdumuzun Ermənistanla sərhəd bölgələrində olduğu kimi, Naxçıvanda da gərgin vəziyyət yaşandı. Erməni quldurlarının torpağımızın bu qiymətli parçasını zəbt etmək niyyəti baş tutmadı. Çünki naxçıvanlılar inandıqları, arxalandıqları ümummilli liderimiz Heydər Əliyevlə birlikdə idilər. Məhz ulu öndərin düşünülmüş addımları, müdrik siyasəti bu diyarı erməni murdarlığından qorudu. Doğrudur, xəbis qonşularımız olan ermənilər hələ də öz bədxahlıqlarından geri çəkilməyiblər. Pis əməl tərsinə yozulan yuxu kimidir, heç zaman çin olmur. Öz çatılarında boğulsunlar.

İndi Naxçıvanın işıqları daha da gur yanır. Ocaqları alovludur. Övladları həvəslə yaşayıb-yaradırlar. Prezident İlham Əliyevin tez-tez Naxçıvana getməsi burada ömürgün sürənlərin həyat eşqini, dözümünü, qurub-yaratmaq əzmini daha da artırır. Muxtar respublikanın paytaxtı nəinki Azərbaycanın, dünyanın ən müasir və gözəl şəhərlərindən birinə çevrilib, onun ayrı-ayrı rayon və şəhərlərində – Ordubad, Culfa, Şərur, Şahbuz, Sədərək, Babək, nəhayət, Kəngərlidə həyat qaynayır. Təbiəti etibarilə son dərəcə maraqlı coğrafi relyefə və şəraitə malik olan Naxçıvan Muxtar Respublikası təkcə dağlarının ucalığı ilə deyil, təbiətinin rəngi ilə belə, fərqlənir. Daşından, qayasından qədimlik tökülür. Burada ağacların, güllərin, çiçəklərin rəngi də fərqlidir. Suyu, havası, balı, qaymağı, təndir çörəyi o qədər dadlıdır ki... Mətbəxi ayrıca bir mövzudur. Vayxırın, Badamlının su mənbələri dünyada məşhurdur. Bu yurdun insanları mərd, səxavətli, yuxarıda dediyim kimi, olduqca qonaqpərvərdirlər. Tək bircə dəfə Naxçıvanı gəzmək bəs edər ki, qəlbi ehtizaza gətirən gözəllikləri, qeyri-adi mənzərələri, alicənab insanları bu məkanı həmişə yadında saxlayasan.

**Flora XƏLİLZADƏ**
***Əməkdar jurnalist***

# II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib



***Dövlət İmtahan Mərkəzi aprelin 30-da 2017-2018-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlərin II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirib.***

İmtahan respublikanın 11 şəhərində – Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində, ümumilikdə, 66 binada aparılıb. İmtahanların idarə olunmasına 237 imtahan rəhbəri və orta təhsil müəssisələrindən 2637 nəzarətçi-müəllim cəlb olunub.

İmtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb, binaların girişində təhlükəsizliyin və buraxılış rejiminin operativliyinin təmin edilməsi üçün stasionar metalaxtaran aparatlar quraşdırılıb.

Məlumat üçün bildirək ki, imtahanda 35433 abituriyent iştirak edib. Onlardan 18681 abituriyent II, 16752 abituriyent isə III qrup üzrə imtahan verib. Abituriyentlərin 32089 nəfəri Azərbaycan bölməsinin, 3344 nəfəri isə rus bölməsinin məzunudur. Onlardan 16233-ü oğlan, 19200-ü qızdır.

İmtahan bütün binalarda saat $11^{00}$-da başlayıb və 3 saat davam edib.

Naxçıvan şəhərində qəbul imtahanları 1, 7 və 14 nömrəli tam orta məktəblərdə olub. İmtahan üçün 1618 nəfər qeydiyyatdan keçib. 141 nəzarətçi, 12 imtahan rəhbərindən 6 imtahan rəhbəri və nəzarətçi regional bölmənin bazasından olub. İmtahanda iştirak edən nəzarətçilər və imtahan rəhbərlərinə imtahandan bir gün əvvəl seminar-treninqlər keçirilib.

İmtahan başa çatdıqdan dərhal sonra müstəqil ekspertlər tərəfindən test suallarının ekspertizası aparılıb. Həmin gün “Space” telekanalında canlı yayımlanan “Abituriyent” verilişində Dövlət İmtahan Mərkəzinin məsul əməkdaşları və ekspertlər tərəfindən imtahana salınmış sualların düzgün cavabları və test tapşırıqları ilə bağlı geniş izahat verilib. İmtahana salınmış sualların düzgün cavabları eyni zamanda Dövlət İmtahan Mərkəzinin saytında və Facebook səhifəsində yerləşdirilib.

Abituriyentlərin cavab kartlarının emalı başa çatdıqdan sonra nəticələr və hər bir abituriyentin cavab kartının qrafik təsviri imtahandan 3-4 gün sonra Dövlət İmtahan Mərkəzinin internet saytında yerləşdiriləcək.

**Fatma BABAYEVA**

## Gənclərin Zəngəzur Milli Parkına ekskursiyaları təşkil edilib

*Azərbaycan Respublikası Prezidentinin “Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında” 2017-ci il 7 fevral tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Akademik Həsən Əliyevin 110 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən gənclərin və tələbələrin Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkına ekskursiyalarının təşkili nəzərdə tutulub.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu ilə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə hazırladığı qrafikə əsasən gənclərin Zəngəzur Milli Parkının Boyəhməd kəndi istiqamətində ekskursiyası təşkil olunub.

Ekskursiyadan əvvəl Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Azər Məmmədov və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun əməkdaşı Ceyhun Xəlilli çıxış ediblər. Çıxışlarda vurğulanıb ki, gənclərin ayda bir dəfə olmaqla muxtar respublikamızın tarixi və təbiət abidələrinə yürüşlərinin təşkilində məqsəd bölgənin turizm potensialının gənclərə tanıdılmasından, onların asudə vaxtlarının səmərəli keçirilməsindən ibarətdir.



Qeyd olunub ki, bu çərçivədə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının ərazisinə səfərlərin təşkil edilməsi xüsusilə vacibdir. Çünki bu ərazi muxtar respublikanın flora və fauna cəhətdən ən zəngin yerlərindən biridir. Bura ekskursiyaların təşkil olunması isə həm muxtar respublikanın turizm potensialının gənclər arasında təbliği, həm də təbiətin, bölgənin zəngin ekoloji mühitinin gənclərə tanıdılması və sevdirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Ekskursiya çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun əməkdaşı, biologiya üzrə fəlsəfə doktoru Arzu Məmmədov Azərbaycanın elm xəzinəsinə dəyərli töhfələr vermiş görkəmli alim, tanınmış ictimai xadim Həsən Əliyevin fəaliyyətindən və onun adını daşıyan Zəngəzur Milli Parkının flora və fauna aləmindən geniş məlumat verib.

Bildirilib ki, Azərbaycanda coğrafiya və torpaqşünaslıq elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasında, bir sıra yeni elmi istiqamətlərin bugünkü simasının müəyyənləşməsində Həsən Əliyevin müstəsna xidmətləri vardır. Alim bütün zəngin fəaliyyəti boyunca ətraf mühitin mühafizəsi, ekoloji tarazlıq və ölkənin təbii sərvətlərindən səmərəli istifadə üzrə kompleks proqram və silsilə layihələri uğurla həyata keçirib.

Dövlət başçısının 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Zəngəzur Milli Parkı yaradılıb və parka akademik Həsən Əliyevin adı verilib.

Qeyd olunub ki, 42797,4 hektar əraziyə malik parkın yaradılmasında məqsəd ərazidə ayrı-ayrı komponentlərin mühafizəsi, ərazinin özünəməxsus iqlimə, relyefə və digər fiziki-coğrafi xüsusiyyətlərə malik olması, burada müxtəlif növ heyvanların, o cümlədən endemik növlərin qorunub saxlanması ilə yanaşı, ekoloji monitorinqin həyata keçirilməsi, əhalinin ekoloji cəhətdən maarifləndirilməsi, turizm üçün əlverişli şərait yaradılmasından ibarətdir.

Diqqətə çatdırılıb ki, parkın ərazisi ali və nadir bitkilərlə zəngindir. Belə ki, muxtar respublika ərazisində bitən 110 növ ali və nadir bitkidən 77 növü Milli Parkın ərazisində mövcuddur ki, onlardan əksəriyyətinin adı “Qırmızı Kitab”a daxil edilib.

Gənclər muzey binasında, parkın ərazisində mövcud olan heyvan və bitki növləri haqqında məlumatların toplandığı eksponatlarla tanış olub, ekskursiya üçün nəzərdə tutulmuş yerləri gəziblər.

*Qeyd edək ki, ayda bir dəfə olmaqla bu ilin oktyabr ayına qədər davam edəcək ekskursiyalarda gənclərin Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı ərazisində Gənzə, Kotam, Parağaçay kəndləri, Fərhad evi və Babək qalası istiqamətində də səfərləri həyata keçiriləcəkdir.*

**Xəbərlər şöbəsi**

## “Əsrlərdə yaşayan ömür” adlı konfrans

***“Naxçıvan” Universitetində böyük Azərbaycan şairi, ictimai xadim Molla Pənah Vaqifin anadan olmasının 300 illik yubileyi ilə əlaqədar “Əsrlərdə yaşayan ömür” adlı konfrans keçirilib.***

Konfransı giriş sözü ilə universitetin tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru İbrahim Kazımbəyli açıb. O ölməz sənətkar Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi ilə bağlı ölkə başçısı cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamın əhəmiyyətindən danışıb.

Konfransda Azərbaycan dili və ədəbiyyat kafedrasının baş müəllimləri Təranə Qəbulovanın “Azərbaycan türklərinin məşhur və müqtədir şairi”, Mədəd Səfərovun “Azərbaycan dilinin saflaşmasında Molla Pənah Vaqifin rolu”, Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə magistrant Mətanət Əliyevanın “Molla Pənah Vaqif yaradıcılığının özünəməxsus xüsusiyyətləri” mövzularında çıxışları dinlənilib. Çıxışlarda vurğulanıb ki, Molla Pənah Vaqifin yaradıcılığı Azərbaycan poeziyasının gələcək inkişafına böyük təsir göstərib. Vaqif yaradıcılığı tükənməz xəzinədir. Görkəmli klassikin poetik irsi bütün söz incilərindən öz vaqifliyi ilə seçilir. Vaqif dili mənalı və çox anlaşıqlıdır. Onun sözü, ifadə və cümlələri sadə olduğu qədər təbii və şirindir. Dildə təbiilik və şirinlik isə xəlqiliyin mühüm şərtidir. Böyük şairimiz Molla Pənah Vaqif Azərbaycan xalqının iftixarıdır. Onun şeirləri təkrar-edilməzdir.

Sonra tələbələrin ifasında Molla Pənah Vaqifin şeirləri səsləndirilib.

**Nuray ƏSGƏROVA**

## Naxçıvan Musiqi Kolleci tələbələrinin konserti maraqla qarşılanıb

Mayın 1-də Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində Naxçıvan Musiqi Kollecinin Xalq çalğı alətləri şöbəsinin “Naxçıvanqala” ritm qrupu və “Buta” muğam ansamblının müşayiəti ilə kollecin nağara ixtisası üzrə II kurs tələbəsi Nəcəf Hacılı və balaban ixtisası üzrə I kurs tələbəsi Sərxan Əliyevin konserti olub.

Konsertdən əvvəl aparıcı bildirib ki, Naxçıvan Muxtar Respublikasında ixtisaslı musiqiçi kadrların hazırlanması, istedadlı gənclərin musiqi təhsilinə cəlb edilməsi, milli musiqi alətlərinin və xalq musiqisinin yaşadılması məqsədilə yaradılan Naxçıvan Musiqi Kolleci 40 ildir ki, Naxçıvanda gənc musiqiçi kadrların yetişdirilməsində səmərəli fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında” 2015-ci il 29 mart tarixli Sərəncamı kollecin fəaliyyətinə verilən yüksək qiymətdir.

Qeyd edilib ki, Sərxan Əliyev 2016-cı ildən Naxçıvan Musiqi Kollecində balaban ixtisası, Nəcəf Hacılı isə 2015-ci ildən həmin kollecin nağara ixtisası üzrə təhsil almağa başlayıblar. Hər iki gənc “Dilruba” və “Buta” muğam ansambllarının üzvləridir.

Konsertdə “Buta” muğam ansamblı və “Naxçıvanqala” ritm qrupunun müşayiəti ilə istedadlı gənclərin ifasında maraqlı musiqi nömrələri səsləndirilib. Sərxan Əliyevin balaban və zurnada ifa etdiyi “Sarı gəlin”, “Cəngi”, “Xurcunu” xalq rəqsi, “Gözəlim sənsən” xalq mahnısı, Nəcəf Hacılının ifa etdiyi müxtəlif ritmli kompozisiyalar, simli kvartetlə kompozisiya və solo ifalar alqışlarla qarşılanıb. Konsertdə Naxçıvan Musiqi Kollecinin qızlar qrupu “Ay lo-lo” xalq mahnısını səsləndiriblər.

Konsert “Buta” muğam ansamblının müşayiəti ilə iki gəncin ifasında səslənən “Çahargah” kompozisiyası ilə başa çatıb.

**Əli RZAYEV**

## Aprel ayında səhiyyə xidmətinin əhatə dairəsi genişlənib

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini aprel ayında da davam etdirib, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb.***

Akademik M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin tərkibində olan Uşaq ürək cərrahiyyə şöbəsinin invaziv uşaq kardioloqu Elnur İmanov Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 38 nəfərdə EXO müayinəsi aparıb. Diaqnostika-Müalicə Mərkəzinin həkim briqadası Culfa Rayon Mərkəzi Xəstəxanasında olub, 75 nəfərdə müayinələr, 63 nəfərdə müxtəlif cərrahiyyə əməliyyatları aparıb. Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində şagirdlərin kütləvi müayinəsi başa çatıb. 40 min 349 nəfərdə müayinə aparılıb, 5 min 887 nəfər dispanser qeydiyyata alınıb.

Muxtar respublika ərazisində yoluxucu xəstəliklərə görə epidemioloji vəziyyət sabit olub, xüsusi təhlükəli infeksiyalar qeydə alınmayıb. Hepatit virusları ilə yoluxmanın qarşısının alınması məqsədilə Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları tərəfindən dezinfeksiya tədbirlərinə görə monitorinq aparılıb və müvafiq tədbirlər görülüb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi irsi qan xəstəliklərindən əziyyət çəkən və qan köçürülməsinə ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunmaq üçün könüllü qanvermə aksiyalarının təşkilini davam etdirib. 17 aprel – Hemofiliya Günü münasibətilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi işçiləri tərəfindən qanvermə aksiyası keçirilib, hemofiliya və talassemiyalı xəstələrə köçürmək üçün 18 nəfərdən 9,5 litr qan tədarük edilib.

Muxtar respublikamızın səhiyyə sistemində kadrların bilik və bacarıqlarının artırılması vacib məsələ kimi diqqət mərkəzində saxlanılıb. Aprel ayında orta tibb işçilərinin sertifikasiya imtahanı keçirilib, imtahanda 111 orta tibb işçisi iştirak edib, 69 nəfəri uğurlu nəticə qazanıb. İxtisaslı kadrların hazırlanması və beynəlxalq elmi əlaqələrin genişləndirilməsi məqsədilə Naxçıvan Tibb Kollecinin 12 nəfərdən ibarət müəllim və tələbə heyəti Türkiyə Respublikasının Ankara şəhərində yerləşən Halide Edip Mesleki və Teknik Anadolu Liseyində bir aylıq təcrübə kursuna göndərilib.

Mənşəyi bəlli olmayan dərman preparatlarının qanunsuz gətirilməsinin və satışının qarşısının alınması məqsədilə Səhiyyə Nazirliyində Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Gömrük Komitəsi ilə birgə maarifləndirici seminar təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### *İdman xəbərləri*

## Bu gün güclü dəri əlcək sahibləri məlum olacaq

“Heydər Əliyev kuboku” uğrunda boks üzrə Naxçıvan Muxtar Respublika turnirinə start verilib. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən turnirdə 14-15 yaşlı yeniyetmələr, 18-19 yaşlı gənclər və böyüklər 10 çəki dərəcəsində mübarizə aparırlar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyasının birgə təşkil etdiyi yarışda idmançılar müxtəlif çəki dərəcələrində ən güclünü müəyyən edəcəklər.

Beynəlxalq Boks Federasiyasının mövcud qaydalarına uyğun olaraq keçirilən yarış olimpiya sistemi üzrə təşkil olunub. Turnirdə muxtar respublikanın şəhər və rayonlarından 100-ə yaxın dəri əlcək sahibi ərazi.

Üç gün davam edən yarışa bu gün keçiriləcək final görüşləri ilə yekun vurulacaq.

## “Vətənin müdafiəsinə hazıram” respublika çempionatının final mərhələsi başa çatıb

Mingəçevir şəhərində keçirilən “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə respublika çempionatının final mərhələsinə yekun vurulub. Yarış poliatlon beşnövçülük proqramı üzrə 100 metr məsafəyə qaçış, pnevmatik tüfəngdən atıcılıq, 100 metr məsafəyə üzmək, turnikdə dartınmaq və 2000 metr məsafəyə kross qaçışı üzrə keçirilib.

Yarışda Naxçıvanı muxtar respublika üzrə keçirilən zona birinciliyində qalib olmuş Şərur rayonu Oğlanqala kənd tam orta məktəbinin komandası təmsil edib. 16 komandanın iştirak etdiyi çempionatda komandamız 837 xalla ikinci yerə layiq görülüb.

Qaliblərə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kubok və diplomları təqdim olunub.

Yarışın keçirilməsində məqsəd poliatlon çoxnövçülüyünün yeniyetmə və gənclər arasında təbliği, çağırışyaşlı və çağırışaqədərki yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsi, gənclərin fiziki hazırlıq səviyyəsinin yüksəldilməsindən ibarətdir.

## İki güləşçimiz bürünc medal qazanıb

Aprelin 27-30-da Balakən rayonunda sərbəst güləş üzrə yeniyetmələr arasında XI Respublika Oyunları keçirilib. Yarışda Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının 10 idmançısı mübarizə aparıb. Pəhləvanlarımız keçirilən yarışda 2 medal qazanıblar.

İlk olaraq 42 kiloqram çəki dərəcəsində mübarizə aparan Əziz İsmayılov yarımfinala qədər irəliləyib. Bu mərhələdə məğlub olan güləşçimiz üçüncü yer uğrunda görüşü qələbə ilə başa vuraraq bürünc medal əldə edib. Digər bürünc medalı komandamıza 73 kiloqram çəki dərəcəsində Qoca Əhmədov qazandırıb.

Sonda qalib idmançılarımıza təşkilatçılar tərəfindən diplom, medal və hədiyyələr təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

“Ticarət Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 0200474841 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

“Gülüstan Mineral Sular İstehsalat Sənaye və Ticarət” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 0600008561 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 357